## Sevindik Vəliyev - 75

# Daim hörmət və ehtiramla xatırlanan alim

**Naxçıvan dilçilik məktəbinin tanınmış nümayəndələrindən biri, Azərbaycanın Əməkdar müəllimi, dilçi alim, professor Sevindik Vəliyevin 75 illik yubileyidir. Onun şüurlu ömrünün 50 ilini elmi-pedaqoji və ictimai fəaliyyətə həsr etməsini göz önünə gətirib gördüyü işləri analiz edəndə zamana sığmayan, şərəflə yaşanmış mənalı bir ömür görünür. Monoqrafiya və kitab, yüzlərlə məqalə, yetişdirdiyi gənc alimlər bu ömrün silinməz səhifələridir.**

Professor Sevindik Vəliyev 1945-ci ilin iyun ayının 24-də Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Biçənək kəndində anadan olub. 1970-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun "Azərbaycan dili və ədəbiyyatı" ixtisasını bitirib. 1985-ci ildə Azərbaycan Pedaqoji İnstitutunda təşkil edilmiş birdəfəlik Müdafiə Şurasında "Azərbaycan dili tədrisində sinonimika üzrə işlərin sistemi (IV-VIII siniflərdə)" adlı dissertasiya müdafiə etmiş, pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsini, 2003-cü ildə isə "Oğuz qrupu türk dillərində sadə cümlə" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək filologiya üzrə elmlər doktoru dərəcəsini almışdır. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən 1989-cu ildə dosent, 2008-ci ildə isə professor elmi adına sahib olmuşdur. O, 40 ilə yaxın (1975-2014) Naxçıvan Dövlət Universitetində müxtəlif vəzifələrdə çalışmış, səmərəli şəkildə elmi və pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

Ömrünün müdrik çağlarında belə böyük həvəs və tükənməz enerji ilə elmi axtarışlarını davam etdirən zəhmətkeş alim dil problemlərinin qaranlıq səhifələrini elmi ziyası ilə işıqlandırmağa çalışmışdır. O, mənalı həyatının uzun illərini doğma ana dilimizin tədqiqinə həsr etmiş, onun inkişafına xidmət göstərmişdir. Professor S.Vəliyevin "Sadə cümlə" (1997). "Sadə cümlənin tərkibi" (1998), "Dialoji və monoloji nitqin sadə cümlələri" (1999), "Türk dillərində sadə cümlə" (2005) və s. monoqrafiyaları Azərbaycan dilçilik elmində özünəxas əhəmiyyətə malikdir.

Göründüyü kimi, yorulmaz tədqiqatçı Azərbaycan dilinin aktual problemlərini konseptual və sistemli şəkildə tədqiq etmişdir. O, Azərbaycan dilinin sintaksis məsələlərini umumtürk dilləri kontekstində tədqiqilə daha ardıcıl məşğul olmuşdur. Oğuz qrupu türk dillərində sadə cümlə və bu tip cümlələrin türk dilləri ilə müqayisəli planda tədqiqi, sinonimlərin tədrisi məsələlərində ortaya çıxan problemlərin həlli və s. onun başlıca tədqiqat obyektləri olmuşdur. Dilimizin tarixi, leksikası, milli dil, ədəbi dilin üslub və normaları, elmimizin dünəni və bu günü və s. onun araşdırmalarının müəyyən istiqamətləri idi. O, uzun illər mənəvi varlığımızın ayrılmaz tərkib hissəsi olan dilimizin qorunması, saflığı sahəsində yorulmadan çalışdı. Ana dilinə bu sonsuz sevgi onun yaradıcılığının məhsulu olan elmi əsərlərində öz parlaq əksini tapır. Professor S.Vəliyev istər pedaqoji, istərsə də fəaliyyətinin bütün dövrlərində dilçiliyin aktual və mübahisəli sahələri ilə bağlı dəyərli söz deyən alimlərimizdən oldu. O, dil məsələləri ilə bağlı dövri mətbuatda silsilə məqalələr nəşr etdirir və ana dilinin təbliği



istiqamətində əvəzsiz işlər görürdü. Metodist-alim Sevindik Vəliyevin ali məktəblər üçün nəzərdə tutulan "Sinonimika təliminin elmi-metodik əsasları" (2004), "Azərbaycan dilinin tədrisi məsələləri" (2007), "Dil və dilçilik məsələləri" (2010), "Azərbaycan dili dərslərində sinonimlər üzərində iş" (1980), "İbtitai siniflərdə ana dilinin (Azərbaycan dilinin) tədrisi metodikasından yoxlama işlərinin yerinə yetirilməsinə dair metodik göstərişlər" (1991), "Sinonimika tədrisinin elmi-metodik əsasları" (1990) və s. adlı dərslikləri, metodik tövsiyələri, xüsusi kurs proqramları indi də tələbə və müəllim heyəti tərəfindən əsas vəsait kimi istifadə olunur.

Onun "Naxçıvan şairləri və yazıçıları" (2008), "Naxçıvanın elm-sənət adamları və saz-söz ustaları" (2011), "Naxçıvan ədəbi mühiti" (2008) və s. kitabları naxçıvanşünaslıq üçün dəyərli əsərlərdir.

Professor Sevindik Vəliyev bir sıra respublika və beynəlxalq səviyyəli elmi tədbirlərdə, konfrans və simpoziumlarda Azərbaycan dili və türk dillərinin ən aktual problemlərinə həsr olunmuş geniş məruzələrlə çıxış edirdi. Alimin ana dilinə olan məhəbbətinin ifadəsi qoyulan problemlərin hər birinin həllində öz ifadəsini tapırdı. Bununla da dilimizlə bağlı öz həllini gözləyən məsələlərə müəllif çox həssaslıqla yanaşır, fikir və düşüncələrini gərgin və səmərəli axtarışlarının işığında elmi fikrin süzgəcindən keçirir və elmi ictimaiyyətə təqdim edirdi. Hazırkı dövrdə də onun qaldırdığı problemlər öz aktuallığı ilə diqqəti cəlb edir. Dilin qorunması və inkişafı istiqamətində aparılan ən ümdə addımlardan hesab olunur. Sevindik müəllim elmi axtarışlarını əsl sənət yanğısı ilə aparırdı. O, elmi fəaliyyətində təcrübə və nəzəriyyəni peşəkarlıqla birləşdirirdi. Belə ki, elmi fəaliyyəti bir vəhdət halında götürən alim nəzəri əsərlərlə bərabər dilçilik elminin müxtəlif sahələri ilə bağlı praktik əhəmiyyət kəsb edən onlarla sanballı məqalənin müəllifi olmuşdur.

Görkəmli alimin yüksək ixtisaslı kadrlarln yetişdirilməsində də böyük xidmətləri olmuşdur. Onun rəhbərliyi ilə neçə-neçə dissertant və aspirant fəlsəfə doktoru elmi adını almışdır. Elmi seminarlarda, müdafiələrdə gənc tədqiqatçılara göstərdiyi qayğı, verdiyi xeyirxah məsləhətlər onun qayğıkeşliyi və müdrikliyindən irəli gəlirdi.

Sevindik müəllim mənim tələbə olaraq ən çox sevdiyim, şəxsiyyətinə dərin hörmət bəslədiyim əziz müəllimlərimdən biri idi. Mənim sonrakı elmi yaradıcılığımda da ən çox diqqət və qayğısını hiss etdiyim insanlardan olub. Azərbaycan dilçiliyi kafedrasının müdiri işlədiyi vaxtda (2010) dissertasiya işimin müzakirəsini təşkil etməsi, mənə dəyərli tövsiyə və tapşırıqlar verməsi mənim gələcəkdəki uğurlarıma stimul vermiş oldu. Payızın ilk günlərində müdafiə edirdim... Naxçıvan Dövlət Universitetinin Dissertasiya Şurasında sədr müavini olduğu üçün müdafiəyə sədrlik etmək də ona həvalə edilmişdi. Mən kürsüyə qalxanda özünəxas bir tərzdə, şairanə bir şəkildə "Müzakirə və seminardakı kimi, yenə Zülfiyyə gəlir əli cibində", - deyə replika atması mənim kürsü həyəcanımı tamamilə yox etdi. Onun üzündə yaranan xoş təbəssüm, mehriban ifadə məni hədsiz dərəcə ruhlandırdırmışdı. O, bu "replika" ilə məni sanki elmi ictimayyətə təqdim etdi. Sanra çıxış edən şura üzvləri və mənim elmi rəhbərim görkəmli elm adamı, professor Yusif Seyidov da bu "replikaya" münasibətini bildirdi, konspektsiz çıxışım və iradlara cavabım müdafiəmin ən böyük uğuru kimi dəyərləndirdilər. Bu, məni çox qürurlandırdı, sevincimin həddihüdudu yox idi. Sevindik müəllimin ordakı dərin məzmunlu, obyektiv çıxışı mənim yaddaşımda əbədi olaraq silinməz iz buraxdı. Onun çox böyük ürəyi vardı. O, çoxları haqqında yüksək fikirdə idi. Hər zaman başqalarına kömək etmək, əlindən tutmaq, ruhlandırmaq, elmə həvəsləndirmək onun həyat amalına çevrilmişdi.

Sevindik müəllim qəddi-qaməti, səliqə-sahmanı ilə fərqlənirdi. Sanki bunlar onun xasiyyətinə də öz təsirini göstərdi. Ən kəskin məqamlarda belə səsini yüksəltmədən, asta, mülayim, həlim səslə öz mövqeyini ortaya qoyar və hadisəyə münasibətini bildirirdi. Onun təmkini insanı heyrətləndirirdi. Bəlkə də, bu, onun insanlara qarşı olan sevgisindən, yumşaq xarakterindən və ən əsası, milli mental dəyərlərə bağlılığından irəli gəlirdi. O, xalq yardıcılığını çox sevirdi. Şeirə-sənətə vurğun idi. Kafedradakı qeyri-rəsmi tədbirlərdə bədii qiraətlə şeirlər deyirdi. Sanki onun səsinin ahəngi şeir demək üçün yaradılmışdı. Onun danışığı da belə şirin, asta və axıcı idi. İnsan onu dinləməkdən heç vaxt yorulmurdu. ...nədənsə insan onun haqqında keçmiş zamanda danışa bilmir... Sevindik müəllimi səmimi qəlblə sevən, ona ehtiram göstərən bir insan kimi bu, məni çox ağrıdır, ürəyimi sızladır. Biz onu tez itirdik... Sevindik müəllimin xəstəliyi elə sürətli keçdi, elə qısa müddətdə təsəllisiz sonluqla tamamlandı ki, vəfatından üç gün əvvəl ziyarətinə gedəndə ona ölümü yaraşdırmaq olmurdu. Elmi fəaliyyətimizlə maraqlanır, faktlar gətirir və dəyərli məsləhətlər verir, elə bil xəstə yatağında yox, yüksək kürsüdə idi. Onunla hər görüşüm bir həyat dərsi kimi yaddaşıma həkk olub. El şənliklərindən birində "Xatırla məni" mahnısından bir parça oxuduğu heç zaman qulağımdan getmir. Bu mahnını başqa ifalarda eşidəndə də belə Sevindik müəllim yadıma düşür.

...Sevindik müəllim, sizi sevənlər Sizi hər zaman dərin hörmət və ehtiramla XATIRLAYIR və əbədi olaraq da unutmayacaq. O saf, təmiz, nurlu çöhrəniz və əziz xatirəniz qəlbimizdə heç zaman solmayacaq.

✍ **Zülfiyyə İsmayıl,**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Naxçıvan Bölməsinin əməkdaşı*